# ŞAH İSMAYIL XƏTAİ YARADICILIĞINDA MƏNƏVİ SAFLIĞIN TƏRƏNNÜMÜ

**İradə Əmirəliyeva**,
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*ARTİ-nin aparıcı elmi işçisi*
E-mail: amiraliyeva_i@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəls.dok.* L.A. Məmmədli

***Açar sözlər:*** *Xətainin yaradıcılığı, mənəvi kamillik, mənəvi saflıq, mənəvi keyfiyyətlər, şah və şair*
***Ключевые слова:*** *Творчество Хатаи, духовное совершенство, духовная чистота, моральные качества, шах и поэт*
***Key words:*** *Oeuvre of Khatai, moral perfection, spiritual purity, moral qualities, shah and poet*

İsmayıl 1487-ci il iyulun 17-də Ərdəbil şəhərində doğulmuşdur. O, on üçüncü yüzillikdə Azərbaycanın Ərdəbil şəhərində Səfəviyyə sufi təriqətinin yaradıcısı Şeyx Səfinin nəslindəndir. İsmayılın atası Ərdəbil hakimi Şeyx Heydər, anası Ağqoyunlu hökmdarı Uzun Həsənin qızı Aləmşahbəyim idi.

İsmayıl uşaqlıq illərindən çətinliklərlə qarşılaşıb, hətta qardaşları ilə birgə 5 il həbsxana həyatı keçirib. Babası Uzun Həsən dünyadan köçəndən sonra Ağqoyunlu şahzadələri hakimiyyət uğrunda mübarizə aparmağa başladılar.

Şeyx Heydər 1488-ci il iyulun 9-da Şahdağın ətəyində (Tabasaranda) Şirvanşahın birləşmiş qüvvələri ilə qızılbaşlar arasındakı döyüşdə həlak olandan sonra Sultan Yaqub anaları Aləmşahbəyimlə iki yaşlı İsmayılı və onun qardaşları Sultan Əli ilə İbrahimi zindana salır. Onlar beş il həbs həyatı keçirirlər.

Sonradan Rüstəm Mirzə onları azadlığa buraxır. Sultan Əlini Ərdəbilə müstəqil hakim təyin edir. 1493-cü ildə Rüstəm Mirzə Ərdəbil hakimi Sultan Əli ilə birlikdə Baysunquru məğlub edirlər. Bu zamanlar Səfəvilərin qüvvətlənməkdə, ətraflarına qüvvələr toplamaqda idilər. Rüstəm Mirzə onların artan gücündən ehtiyatlanaraq, Şeyx Sultan Əliyə qarşı sui-qəsd təşkil edir.

Sui-qəsddən xəbər tutan Şeyx Sultan Əli qardaşlarını da götürüb, Ərdəbilə yollanır. Lakin yolda Rüstəm Mirzənin qoşununa rast gəlirlər. Şeyx Sultan Əli vəziyyətin ciddiliyini görüb İsmayılı Səfəvi təriqətinin rəhbəri elan edir və qardaşlarını Ərdəbilə göndərir, özü isə başının dəstəsi ilə Rüstəm Mirzənin qoşunu ilə döyüşə girir. Bu savaşda (1494) qızılbaşlar məğlubiyyətə uğrayır və Şeyx Sultan Əli həlak olur. Sufilər İsmayılla onun qardaşı İbrahimin Ərdəbildə gizlənməsinə yardım edirlər. Rüstəm Mirzə onların tutularaq öldürülməsi əmrini verir.

İsmayıl hakimiyyət uğrunda mübarizəyə hələ kiçik yaşlarında ikən başlamalı olub. Atası Şeyx Heydərdən və qardaşı Sultan Əlidən sonra qızılbaşlar hərəkatına (başlarına 12 zolaqlı qırmızı çalma qoyduqları üçün onlar qızılbaşlar adlandırılırdı) rəhbərlik edib. 1499-cu ilin avqustunda Lahicandan Ərdəbilə yola düşəndə onun vur-tut 12 yaşı vardı.

Bir müddət ötür. İsmayıl müəyyən yaşa çatır, Qızılbaşlar güclənir. İsmayıl qoşunun başına keçir.

Qızılbaşlar 1501-ci ilin ortalarında Şərur düzündə Əlvənd Mirzə ilə döyüşə girirlər. İsmayılın 7 minlik qoşunu Əlvənd Mirzənin 30 minlik ordusunu məğlub edir. Qızılbaşların Təbrizə yolu açılır. Təbrizdə İsmayıl özünü şah elan edir (1501). Beləliklə, paytaxtı Təbriz olan Azərbaycan Səfəvilər dövlətinin təməli qoyulur. Bundan sonra, I Şah İsmayıl Ağqoyunlu hökmdarı Sultan Murada təslim olmağı təklif edir. Sultan Murad onun təklifini qəbul etmir. Səfəvi və Ağqoyunlu qoşunları 1503-cü il iyunun 21-də Həmədan yaxınlığında üz-üzə gəlirlər. Şah İsmayıl döyüşü udur. Nəticədə Ağqoyunlu dövləti süqut edir. Daha sonra Şah I İsmayıl Şeybani xanı məğlub edir. Beləliklə, Şah İsmayıl özbək dövləti də daxil olmaqla Osmanlı imperiyasının sərhədlərinə kimi uzanıb gedən böyük bir dövlət qurur.

Şah I İsmayılın hakimiyyəti illərində Səfəvilər dövləti Yaxın Şərqin qüdrətli dövlətlərin-

dən biri olur. Bu dövlətin ərazisi 2 milyon 800 min kvadrat kilometri əhatə edirdi.

Şah I İsmayılın apardığı müharibələr qüdrətli hökmdarın vahid Azərbaycan dövləti yaratmaq arzu və istəyi ilə bağlı idi.

Şah İsmayıl məharətli, cəsur və istedadlı sərkərdə, böyük hökmdar, uzaqgörən dövlət xadimi, məğrur, azad fikirli, şəxs və diplomat olmaqla yanaşı qüdrətli şair idi, yaxşı təhsil almışdı. Lahicanda tanınmış alim Şəmsəddin Lahicidən ərəb və fars dillərini öyrənmiş, elmlərə yiyələnmişdi. O, qılıncı və qələmi ilə Azərbaycan xalqının tarixində misilsiz iz qoymuş böyük şəxsiyyətdir. Şair və alimlərə öz fəaliyyətlərində, sənətkarlara işlərində dəstək dururdu. Xətayi təxəllüsü ilə "Dəhnamə" ("On məktub") poeması; "Bahariyyə" kimi məşhur şeir, çox saylı qəzəlləri, qəsidələri, bayatıları, gəraylıları və qoşmaları vardır.

Şah İsmayıl Xətai qısa ömür sürdü. Lakin dövlət işlərinə çox vaxt sərf etməsinə baxmayaraq, zəngin və çoxcəhətli bir irs qoyub getmişdir. Xətai istər heca, istərsə də əruz vəznində, həm epik, həm də lirik janrlarda əsərlər yaratmış, Azərbaycan ədəbiyyatını zənginləşdirmişdir.

Bu qüdrətli hökmdarın öz xalqı qarşısında böyük xidmətləri olmuşdur: Azərbaycan milli mədəniyyətinin, elmin, incəsənətin tərəqqisindən, ictimai və iqtisadi inkişafından ötrü münbit şərait yaratmışdı; Azərbaycan türkcəsini dövlət dili elan etmişdi. Tarixdə Azərbaycan dilini birinci dəfə yeganə rəsmi dövlət dili səviyyəsinə yüksəldən Şah İsmayıl olmuşdur. O, Azərbaycan dilini həm də şeir dilinə çevirmişdi.

Onun poeziyası mənəvi kamilliyə, gözəlliyə, igidlik və qəhrəmanlığa, xeyirxahlığa, ədalətə məhəbbətlə yoğrulub. O eyni zamanda pisliyi, sədaqətsizliyi, mənəviyyatsızlığı, yaramazlığı, eybəcərliyi, əqidəsizliyi və s. kəskin tənqid edirdi.

Şah İsmayıl Xətai əsərlərində avamlığa, mövhumatçılığa və şəxsiyyətin mənəviyyatını buxovlayan zəncirlərə qarşı güclü etiraz duyulur.

Xətai poeziyasında xeyir və bədxahlığı qarşılaşdırır, Dahi şairə görə, insanın gördüyü yaxşı və yaman işin nəticəsi qarşısına çıxacaq. Pis əmələ uyanlar axırda bunun xəcalətini çəkəcəkdir. Yaxşı işə və xeyirxah əməllərə önəm verənlər üzüağ olacaqlar.

Xətai poeziyasının başlıca obyektini – insan, diqqətəlayiq məqsədini - bəşər övladına sevgi təşkil edir. O, insanı yer üzünün əşrəfi hesab edirdi.

Xətainin əsərləri arasında "Dəhnamə" poemasının özünəməxsus rolu vardır. Bu poema həm klassik ədəbiyyatdan, həm xalq yaradıcılığından faydalanmaqla qələmə alınmışdır.

Xətai özlərində müsbət mənəvi keyfiyyətləri cəmləşdirməyi insanlara məsləhət görürdü. Cəsurluğa, saf sevgiyə, düzlüyə, dostluğa, qardaşlığa, dinc yanaşı yaşamağa, sədaqətə yüksək əxlaqi keyfiyyətlər kimi yanaşırdı. Xətai yaradıcılığı ilə tanışlıq əsasında onun müsbət keyfiyyətlərə, nümunəvi davranış və rəftara, eyni zamanda naqis əməllərə və hərəkətlərə aid bəzi fikirlərini seçib ayırdıq. Onları nəzərdən keçirək.

***Qəzəllərindən:***

*Məhəbbətə aid*: Hər yetən aşiq olurmu? (1, 36)

Hər işi eşqilə detgil cahanda,
Ki eşq ilə olan bünyadı vardır (1, 91).

*Düzlük və doğruçuluğa aid*: Doğruluq dost qapısıdır, doğru gəl, gir bu yola (1, 36).

*Bivəfalara aid*:

Bivəfalardan məhəbbət istəyən divanədir (1, 94).

Hər vəfasız bivəfa kimsəni yar etmək nədir? (1, 96).

"***Nəsihətnamə*"*sindən.*** *Xeyirxah və əməli saleh olmağa aid*:

Görünən, göstərən, gözdə görən ol,
Aparan, gətirən, alan, verən ol (1, 213).

*Dostluğa, yoldaşlığa, əqidə birliyinə aid*:

Kamal əhli ilə olgil masahib
Ki ondan mərifət kəsb et əcaib (1, 217).
Yoldaş oldur rəhm edə yoldaşinə,
Yoldaşin uğratmaya yol daşinə (1, 217).

*Əsilli-nəsilli olmağın vacibliyi və faydalılığına aid:*

Kimin ki, məni içrə zati yoxdur,
Çürükdür sözünün bünyadi yoxdur (1, 217).

*Pislikdən, şərdən, mərdimazarlıqdan uzaq durmağa aid:*

Könül yıxma, vəli eylə eylə imarət,
Dəxi yoldaş ilə qonşunu gözlı (1, 217).

***Qoşmalarından:*** *Mərdliyə aid:*

Namərd bağçasında qönçə gül olmaz,
Kamil ilə yoldaş olan yorulmaz (1, 310).
Ər odur ki, iqrarından dönməyən,
Qəlbində, könlündə riya bilməyən (1, 312).

***Gəraylılarından***: *yolundan azmamağa aid:*

*Yolun əyrisini getmə,*
*Doğru yola nəzər eylə (1, 319).*
*Sözün qüdrətinə aid:*
*Söz vardır kəsdirər başı,*
*Söz vardır, kəsər savaşı.*
*Söz vardır ağulu aşı,*
*Bal ilən edər yağ bir söz (1, 319).*

Xətainin şeirləri arasında "Bahariyyə" xüsusi diqqəti cəlb edir. "Bahariyyə"də təbiətin təsviri verilir. Gənc nəslin ekoloji tərbiyəsi, ekoloji mədəniyyətə yiyələnməsi baxımından bu əsər zəngin imkanlara malikdir. Diqqət yetirək:

*Qış getdi, yenə bahar gəldi,*
*Gül bitdi vü laləzar gəldi.*
*Quşlar hamısı fəğanə düşdü,*
*Eşq odu yenə bu canə düşdü.*
*Sərvin yenə dutdu damənin su,*
*Su üstə oxudu faxtə ku-ku.*
*Qönçə dəhəni çəməndə xəndan,*
*Gülməkdən ənar açıldı dəndan.*
*Durna uçuban həvayə düşdü,*
*Laçın aluban ovayə düşdü…*

Xətai bu şeirdə "Eşq odu yenə bu canə düşdü" fikrini irəli sürməklə təbiətlə insan həyatını vəhdətdə götürmüş olur. Şairə görə, təbiətdə gülün açması və quşların nəğmə oxuması ilə insanların ürəklərində də sevgi duyğularını oyanır.

Şah İsmayıl cəmi 37 il ömür sürdü. 1524-cü il mayın 23-də dünyasını dəyişdi. O, Ərdəbildə Şeyx Səfi məqbərəsində dəfn olunmuşdur. Azərbaycanın böyük mütəfəkkiri Abbasqulu Ağa Bakıxanov "Gülüstani-İrəm" əsərində yazırdı: "… Hicri 930-cu ilin əvvəllərində (miladi 1524)… Şah İsmayıl vəfat etdi. O, mehribanlıqda dünyanı işıqlandıran və qəhrəmanlıqda düşməni yaxan, od məcazlı bir sultan idi. Qurmuş olduğu səltənətin mühüm işlərinə məşğul olmasına baxmayaraq, Şah İsmayıl alimlərlə müsahib olub, şeir söyləməyə də mail idi".

Yuxarıda deyilənləri ümumiləşdirməli olsaq, deyə bilərik ki, Şah İsmayıl Xətainin yaradıcılığı bir tərbiyə məktəbidir, eyni zamanda təhsilləndirici, maarifləndirici və inkişafetdirici təsir gücünə malikdir.

**Problemin aktuallığı.** Mənəvi keyfiyyətlərə yiyələnməyin vacibliyi, əxlaqın saflaşdırılmasına dair Xətainin fikirləri sistemləşdirildiyindən aktualdır.

**Problemin yeniliyi.** Məqalədə Şah İsmayıl Xətai yaradıcılığında mənəvi saflığın tərənnümü diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Ali təhsil müəssisələrində "Azərbaycanda məktəb və pedaqoji fikir tarixi" fənni üzrə məşğələlərdə müəllimlərə öz köməyini göstərəcəkdir.

## ƏDƏBİYYAT

Şah İsmayıl Xətayi. Keçmə namərd körpüsündən: Şeirlər və poemalar. Bakı: Yazıçı, 1988.

**И.Б. Амиралиева**

## ВОСХВАЛЕНИЕ ДУХОВНОЙ ЧИСТОТЫ В ТВОРЧЕСТВЕ ШАХА ИСМАИЛА ХАТАИ

***РЕЗЮМЕ***

Статья посвящена восхвалению духовной чистоты в творчестве Шаха Исмаила Хатаи. Подробно рассматриваются взгляды поэта на товарищество и дружбу, любовь и верность, мужество и доброту, а также на проявление зла, небрежности и неверности. Статья представляет актуальность в силу систематизации идей Хатаи относительно важности усвоения нравственных качеств и духовной чистоты.

**I.B. Amiraliveva**

## PRAISING OF SPIRITUAL PURITY IN THE OEUVRE OF SHAH ISMAIL KHATAI

***SUMMARY***

The article is dedicated to praising spiritual purity in the works of Shah Ismail Khatai. He focuses on topics of fellowship and friendship, love and faithfulness, courage, kindness and goodness and at the same time of evil, negligence and infidelity. Because of the fact that Khatai's thoughts about the importance of mastering moral qualities and purifying morality are systematized, the article is topical.

**Redaksiyaya daxil olub:** 22.02.2018